

# Müzəffər lider, məğrur xalq

*Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi və yenilməz, rəşadətli Azərbaycan Ordusunun misilsiz qəhrəmanlığı nəticəsində 44 gün ərzində ərazi bütövlüyümüz bərpa edildi.*

## *Ulu Öndərin Azərbaycanın tərəqqisini təmin edən ideyalarının dövlət başçısı tərəfindən reallaşdırılması zəfərlərə aparan yoldur*

Hər bir azərbaycanlının qəlbində yüksək qürur hissləri yaradan şanlı və tarixi qələbəmiz Azərbaycan xalqında milli oyanışa, yeni bir dirçəlişə, birliyə səbəb oldu. 44 günlük Vətən müharibəsində Azərbaycan dövləti qətiyyətli qələbə qazandı, işğalçını əzəli torpaqlarımızdan qovdu.

**(davamı 3-cü səhifədə)**

# Müzəffər lider, məğrur xalq



**Ulu Öndərin Azərbaycanın tərəqqisini təmin edən ideyalarının dövlət başçısı tərəfindən reallaşdırılması zəfərlərə aparan yoldur**



**(əvvəli 1-ci səhifədə)**

Eyni zamanda Azərbaycan xalqı Prezidentimizin ətrafında dəmir yumruq kimi birləşərək sözün əsl mənasında böyük xalq olduğunu, ulu türk millətinin cəsur, qəhrəman bir boyu olduğunu bir daha sübut etdi.

Hələ 2003-cü ilin prezident seçkiləri ərəfəsində ulu öndər Heydər Əliyevin Azərbaycan vətəndaşlarına müraciətində İlham Əliyevi bizə belə təqdim edirdi: "Üzümü Sizə - həmvətənlərimə tutaraq, qarşıdan gələn prezident seçkilərində prezidentliyə namizəd, mənim siyasi varisim, Yeni Azərbaycan Partiyası sədrinin I müavini İlham Əliyevi dəstəkləməyə çağırıram. O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".

Azərbaycan xalqı cənab İlham Əliyevi Prezident seçməklə ilk növbədə ölkəmizi nicata aparan Heydər Əliyev siyasi kursuna səs verdi. Bu seçimi ilə Azərbaycan xalqı sülhün, əmin-amanlığın, tərəqqinin, inkişafın, quruculuğun və sabitliyin tərəfində olduğunu nümayiş etdirdi və ölkədə bu siyasətə alternativin olmadığını göstərdi. Ümummilli Liderin bu müdrik kəlamları 17 il sonra, 2020-ci ilin sentyabr-noyabr aylarında öz tarixi təsdiqini tapdı. Azərbaycan xalqı öz Prezidentinin ətrafında sarsılmaz sipərə dönərək 30 il davam edən işğala son qoydu, ölkənin ərazi bütövlüyünü təmin etdi. Bununla da xalqımızın və dövlətimizin qarşısında duran ən taleyüklü məsələ öz həllini tapdı. 21 il bundan öncə xalqın etimad göstərdiyi möhtərəm Prezidentimiz zamanı gəlincə Müzəffər sərkərdəyə, sözün əsl mənasında Azərbaycan xalqının tarix yazan qəhrəmanına çevrildi.

Ölkə Prezidenti cənab İlham Əliyevin ilk gündən həyata keçirməyə başladığı siyasətin əsasında duran milli maraqların qorunması prinsipi dövlətin müstəqilliyinin və ideoloji dayaqlarının daha da möhkəmləndirilməsini, vətəndaş həmrəyliyinin bərqərar olmasını təmin etdi. Dövlət başçısı Azərbaycan siyasi sisteminə rasional davranış modeli, məntiqi mühakimələrə və analitik təhlilə əsaslanan, mütərəqqi, pozitiv, milli məqsədlərə xidmət edən realizmə söykənən siyasi fəaliyyət nümunəsi gətirdi, öz fəaliyyəti və davranışı ilə siyasi sistemimizə siyasi mədəniyyət, milli mənəviyyatımıza uyğun siyasi əxlaq standartı, milli siyasi etika nümunəsi təqdim etdi. Demokratiyanın istismarçı siyasi vasitə deyil, milli mədəniyyətimiz və mentalitetimizlə, eyni zamanda müsəlman sosial-psixoloji kimliyimizlə uzlaşan bir dəyər və yaşam tərzi olduğunu sübut etməklə cənab Prezident intellektual əsaslarda yeni demokratik modernist cəmiyyət formalaşdıra bildi. Həyata keçirdiyi uğurlu xarici siyasət nəticəsində əcnəbi islamofob dairələrin və antiazərbaycançı mərkəzlərin ölkəmizdə yaratmaq istədikləri "idarə olunan xaos" planını məharətlə pozaraq, xalqı və ölkəni etnik, siyasi və ideoloji qarşıdurmadan qorudu. Müsəlman Şərqinin bir çox ölkələrində uğurla həyata keçirilən "ideologiyasızlaşdırma və dövlətsizləşdirmə" siyasətinin ölkəmizdə həyata keçirilməsinin qarşısı ustalıqla alındı. Ötən illər ərzində demokratik inkişaf, hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğunda misilsiz nailiyyətlər əldə olundu. Cənab Prezident İlham Əliyevin ölkə iqtisadiyyatında qeyri-neft sektorunun çəkisinin artırılması ilə bağlı davamlı olaraq gördüyü tədbirlər tezliklə öz nəticəsini verməyə başladı. Nəhəng infrastruktur layihələri həyata keçirildi. Azərbaycanda nəqliyyat sisteminin yenidən qurulması ölkəmizin dünyaya çıxışını təmin etdi.

Azərbaycan lideri kimi ölkəmizi inamla irəli apara bildi. Dinamik inkişaf, sürətlə modernləşmə təmin edildi. Azərbaycan dünyada nüfuz və söz sahibinə malik oldu. Eyni zamanda İlham Əliyev BMT-nin, NATO-nun, ATƏT-in kürsülərində inamla, cəsarətlə çıxış edərək müstəqil xarici siyasət apardı. Hər birimiz Ümummilli Liderin bu yüksək etimadını doğruldan İlham Əliyevin rəhbərlik etdiyi illərdə ölkəmizi dünyaya tanıtdığının şahidi olmuşuq. Azərbaycanın adını gündəmdən düşürməyən ölkə rəhbərliyi bir-birinin ardınca müxtəlif beynəlxalq tədbirlərin keçirilməsinə nail olur, Azərbaycanın mədəni, güvənilən, etibarlı, böyük layihələr keçirməyə qadir olan bir ölkə olduğunu göstərdi və bununla da tərəfdaşlarımızın sayını artırdı. 2012-ci ildə Avroviziya mahnı müsabiqəsinin, 2015-ci ildə I Avropa Oyunlarının, 2017-ci ildə IV İslam Həmrəyliyi Oyunlarının və Formula 1 Bakı Qran-Prisinin təşkil edilməsi, minlərlə xarici ölkə vətəndaşının bu tədbirlərdə təhlükəsiz iştirakının təmin olunması ən uğurlu addımlardandır. 2011-ci ildə Azərbaycanın 155 dövlətin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi, 120 dövlətin təmsil olunduğu Qoşulmama Hərəkatına üzv qəbul edilməsi, 2019-cu ildən 2022-ci ilə qədər Azərbaycan Respublikası BMT-dən sonra ikinci ən böyük beynəlxalq platforma olan Qoşulmama Hərəkatına sədrliyi və bu sədrliyin vaxtının uzadılması, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına (indiki Türk Dövlətləri Təşkilatına) sədrlik etməsi və digər tarixi məqamlar da İlham Əliyevin səyləri, qətiyyəti, məqsədyönlü siyasəti nəticəsində baş tutmuşdur. Buraya onlarla iqtisadi layihələri, mədəni proqramları, səfərləri də əlavə etmək olar.

Bu uğurların zirvə nöqtəsi isə Vətən müharibəsindəki parlaq qələbəmizdir. Hər bir sahədə inkişafa nail olan Azərbaycan xalqı həmişə Prezidentinin yanında olmuş, gələcəyə doğru birgə addımlamışdır. Cənab İlham Əliyevin vətən üçün etdiyi hər bir iş uğura gedən yol idi. Bu uğurun ən bariz nümunəsini isə biz 2020-ci ildə bir daha gördük. Belə ki, sentyabrın 27-də başlanan qalibiyyət yürüşü noyabrın 10-da "Dəmir yumruğun zərbəsi" altında Ermənistanın kapitulyasiyası ilə başa çatdı. İlham Əliyevin Ali Baş Komandanlığı ilə qəhrəman ordumuz cəmi 44 gün ərzində 30 illik erməni işğalına son qoydu, tariximizi şərəfləndirən, gələcəyimizə işıq salan böyük Qələbəyə imza atdı. Bu qələbəni əsgər və zabitlərimiz döyüş meydanında, İlham Əliyev həm Ali Baş Komandan kimi, həm də Azərbaycan Respublikasının Prezidenti, siyasi lider kimi qazandı. Müzəffər Ali Baş Komandan İlham Əliyevin indi böyük dövlət xadimi və Azərbaycan xalqının lideri kimi əsas missiyası dövlətin və xalqın gücü ilə düşmənin viran qoyduğu işğaldan azad edilən şəhər və kəndlərimizin yenidən qurulması, soydaşlarımızın evlərinə qaytarılmasıdır. Böyük Qayıdış təkcə azərbaycanlıların Qarabağa deyil, vaxtilə deportasiya edildikləri bütün tarixi torpaqlarına qayıdışını əhatə edəcəkdir. İndi Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin böyük uzaqgörənliklə qurduğu strategiya Azərbaycan dövlətini daha qüdrətli, Azərbaycan xalqını daha güclü, Azərbaycan bayrağını daha uca etməyə hədəflənib.









Müstəqil Azərbaycan dövlətinin özünün ərazi bütövlüyünü təmin etmək üçün Qarabağda apardığı və uğurla başa çatdırdığı antiterror tədbirləri Azərbaycan Respublikasının Konstitusiyasına və beynəlxalq hüquq normalarına tam uyğun idi. Azərbaycan Respublikasının ərazisi daxilində qanunsuz olaraq yerləşdirilmiş Ermənistanın separatçı hərbi birləşmələrinin Azərbaycan Ordusunun bölmələri tərəfindən tərksilah edilməsi və silah-sursatlarını təhvil verməklə Qarabağdan çıxarılması regionda sabitliyin və gələcək inkişafın təmin edilməsi üçün atılmış zəruri addımdır. Qəhrəman Ordumuzun Qarabağda antiterror əməliyyatı zamanı mülki əhaliyə heç bir zərər yetirməmək və yerli erməni əhalisinin təhlükəsizliyini təmin etmək üçün həyata keçirdiyi tədbirlər, yalnız separatçı hərbi birləşmələrə və onların hərbi obyektlərinə zərbələr vurması bütün dünyaya dövlətimizin yüksək humanizmini əyani şəkildə təqdim etdi. Qarabağda antiterror əməliyyatının cəmi bir gün ərzində bütün hədəflər üzrə reallaşdırılması və uğurla başa çatdırılması dünya hərb tarixinin nadir hadisəsidir. Müzəffər Ali Baş Komandan İlham Əliyev Prezident kimi 20 illik gərgin əməyinin nəticəsində Azərbaycanı ərazi bütövlüyünə qovuşdurdu, xalqımızı dünyada mübariz, döyüşkən və müzəffər xalq kimi tanıtdı.

Bu gün dünyanın davamlı olaraq ən sürətli inkişaf edən ölkələrindən biri məhz Azərbaycandır. Ulu öndərdən bizə miras qalan Azərbaycan. İndi bu ölkəyə İlham Əliyev kimi tükənməz gücə, zəkaya malik bir şəxsiyyət rəhbərlik edir. Bundan sonra İlham Əliyevin əsas hədəfi öz torpaqlarından ayrı düşən insanların yurd yerlərinə qayıtmasıdır. Ali Baş Komandanın çıxışı bu baxımdan diqqət çəkir. "Bütün şəhərlərimiz, kəndlərimiz bərpa ediləcəkdir. Biz Böyük Qayıdış astanasındayıq və Azərbaycan dövləti əlindən gələni edəcək ki, işğal olunmuş və azad edilmiş torpaqlara qayıdacaq Azərbaycan vətəndaşları rahat yaşasınlar, əmin-amanlıq şəraitində yaşasınlar. Bu torpaqlarda həyat canlanacaqdır...".

Bu gün azad edilmiş torpaqlarımızda bərpa-quruculuq həyata keçirilir. Əhalinin rahat yaşayışı üçün hər bir şərait yaradılır. Əlbəttə ki, bütün bunlar bir daha vətənpərvər liderimizin doğma Azərbaycanın hər qarışına, eləcə də hər bir vətəndaşının rifah halının yüksəldilməsinə verdiyi önəmin və fəaliyyətinin əsas prinsipi olan "mən hər bir Azərbaycan vətəndaşının Prezidentiyəm" ifadəsinin təzahürüdür.

**Mustafa KAMAL,**
**"Respublika".**